# Uğurları ilə seçilən təhsil ocağı



Bu gün müstəqil, suveren Azərbaycanda həyatımızın hər bir sahəsində yüksək inkişaf, uğur əldə olunmuşdur. Son illər dövlətimizin müəyyən etdiyi və ardıcıllıqla həyata keçirdiyi inkişaf strategiyası ölkəmizin iqtisadi gücünü artırmış və bütün sahələrdə məqsədyönlü islahatların aparılmasını təmin etmişdir.

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra bütün sahələrlə bərabər milli təhsilimizin inkişafı, onun səviyyəsinin müasir tələblərə çatdırılması istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. Müstəqil Azərbaycanda ikinci dəfə ölkə rəhbərliyinə gələn ulu öndər Heydər Əliyevin ən çox diqqət və qayğı göstərdiyi sahələrdən biri də məhz milli təhsilimizin inkişafı məsələsi olmuşdur. Ümummilli lider "Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir" - deyə vurğulayır, təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində islahatlar aparılırdı. Təməli o dövrdə qoyulan təhsil islahatları bu gün onun siyasi varisi Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun, yeni məzmun və formada davam etdirilir. Bu gün savad, bilik, yeni texnologiyalar hər şeyi həll edir, hər bir dövlətin inkişafı onun təhsilinin səviyyəsi ilə ölçülür - deyən cənab Prezident bu sahənin inkişafını özünün fəaliyyətində ən prioritet istiqamətlərdən biri elan etmişdir. Son 15 ildə Azərbaycanın bütün bölgələrində, paytaxt Bakıda yüzlərlə yeni-yeni məktəblərin tikintisi və əsaslı təmiri işlərinin geniş vüsət alması, məktəblərdə şagirdlərin yüksək bilik almaları üçün yaradılmış hər cür şərait ölkə təhsilində son illər əldə olunan uğurların sırasını artırmış, təhsilin keyfiyyətini yüksəltmişdir. Bu işlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın da "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində həyata keçirdiyi işləri də xüsusilə vurğulamaq lazımdır. Bu layihənin başlanması bu sahədə geniş bir hərəkata yol açdı və bir çox məktəblər tikildi. Milli təhsilimizin inkişafını, onun səviyyəsinin müasir dünya tələblərinə uyğunlaşdırılmasını daim öz diqqətində saxlayan cənab Prezident tikilən və ya əsaslı təmir olunan yeni məktəblərin açılışında şəxsən iştirak edir, məktəblərdə yaradılan tədris şəraiti ilə tanış olur.



Bu gün Bakı şəhərində fəaliyyət göstərən, öz uğurları ilə seçilən təhsil ocaqlarından biri də BSU-nun nəzdində Məktəb-lisey kompleksidir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2006-cı ildə təsdiq olunmuş, istedadlı və qabiliyyətli uşaqlara qayğının artırılmasına yönəldilmiş Dövlət Proqramına əsasən 2010-cu ildə Bakı şəhər 15 nömrəli tam orta məktəbin və BSU-nun humanitar liseyinin bazasında yaradılmışdır. Sevindirici haldır ki, 2014-cü ildə aparılan əsaslı təmirdən sonra Azərbaycan Prezidenti cənab İlham Əliyev kompleksdə olmuş, onun açılışında şəxsən iştirak etmişdir. Ölkə başçısının diqqət və qayğısı, şagirdlərin hərtərəfli biliyə yiyələnmələri üçün yaradılmış gözəl şərait biz müəllimləri daha yaxşı işləməyə, şagirdləri isə yüksək qiymətlərlə oxumağa ruhlandırmışdır. Məktəbin pedaqoji kollektivi dövlət qayğısına öz əməli işləri ilə cavab verirlər. 550 nəfər şagirdin təhsil alması üçün nəzərdə tutulsa da hazırda kompleksdə 1500 nəfərə yaxın şagird təhsil alır və tədris iki növbəlidir. Kompleks lazımi avadanlıqlarla təchiz olunmuşdur. Cari ildə məktəbin 1-ci sinfinə 165 nəfər uşaq qəbul olunmuş, bunlardan 100 nəfəri rus, 65-i isə Azərbaycan bölməsinədir. Qeyd edim ki, 1-ci sinfə qəbul üçün müraciət edənlər çox idi, lakin yer azlığına görə seçim etdik.

Ötən dərs ilində məktəbi bitirən 60 məzundan 50 məzunu müxtəlif ali məktəblərə qəbul olmuşdur. Onlardan 3 nəfəri 600-dən yuxarı bal toplamışdır. Mənzurə Əliyeva 682 balla ADA Universitetinə, Səbinə Orucəliyeva 602 balla İqtisad Universitetinə, Leyla Məcidova 629 bal toplayaraq ATU-ya daxil olmuşdur. 11 nəfər məzunumuz isə 500-dən yuxarı bal toplamışdır. On bir nəfər məzun xarici ölkələrin aparıcı ali məktəb ocaqlarına qəbul olmuşlar. Fidan Şadlinskaya isə qızıl medalla təhsilini başa vurmuşdur.

Hər il olduğu kimi, ötən tədris ilində də 4 dərnəyimiz fəaliyyət göstərib. Vaxtaşırı "Bacarıqlı əllər" dərnək üzvlərinin sərgiləri keçirilib, dram, ədəbiyyat və xor dərnək üzvləri ədəbi-musiqili kompozisiya ilə çıxış ediblər. 2016-2017-ci tədris ilində Respublika fənn müsabiqələrində uğur qazanmış şagirdlərdən 5 nəfəri Təhsil Nazirliyinin təşkil etdiyi olimpiada hazırlıq qruplarına daxil edilmişdir. 2017-2018-ci tədris ilində 6-7-ci siniflər arasında keçirilmiş IV fənn müsabiqəsinin final turunda 7-ci sinif şagirdi Nəsibə Niftəliyeva kimya fənni üzrə III yerə layiq görülmüşdür. Bundan başqa Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar ümumtəhsil məktəblərinin şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsində kompleksin 11 sinif şagirdi Fidan Şadlinskaya iştirak etmiş Respublika turunda III yerin qalibi olmuş, Təhsil Nazirliyi tərəfindən diplom və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır. Kompleksin 7-ci sinif şagirdi Fatimə Mehdizadə və 8-ci sinif şagirdi Elxan Haqverdiyev X rus dili olimpiadasının 1-ci dərəcəli diplomlarına layiq görülmüşlər.

Məktəb-lisey kompleksi Azərbaycan Respublikası Təhsil Nazirliyinin təhsildə inkişaf və innovasiyalar üzrə II qrant müsabiqəsi çərçivəsində "Təlim rus dilində aparılan siniflərdə və məktəblərdə çalışan fənn müəllimləri üçün ixtisasartırma tədbirlərinin təşkili" layihəsinin qalibi olmuşdur.

Tədris ili ərzində məktəbdə dərs dinləmələri, açıq dərslər, inteqrativ və interaktiv məşğələlər, tədrisin maddi-texniki bazasının möhkəmləndirilməsi tədbirləri, kompleksdə ixtisasartırma və əlavə təhsillə bağlı kursların, seminar-treninqlərin təşkili qarşıya qoyulan məsələlərin çevik həllinə imkan yaratdı. Məktəb-liseyin alman dili müəllimləri ötən ilin noyabr ayında Sumqayıt şəhər 14 N-li məktəbdə Höte İnstitutu tərəfindən "Xarici dil dərsində inteqrasiya" mövzusunda təşkil olunmuş seminarda iştirak etmiş və müvafiq sertifikatlar almışlar. Cari tədris ilində kompleksdə alman dilinin tədrisi gücləndirilmişdir. Təhsil kompleksimiz Almaniya Təhsil Nazirliyi tərəfindən DSD məktəblər şəbəkəsində fəaliyyətini davam etdirməkdədir. İlboyu müəllimlərimizin elmi konfranslarda iştirakına da şərait yaradılmışdır.

Onu da qeyd edim ki, tədris ili ərzində respublikamızın həyatında əlamətdar günlərlə bağlı tədbirlər planı hazırlanıb həyata keçirilmiş, muzeylərə, tarixi yerlərə ekskursiyalar təşkil olunmuşdur. Vətən torpaqları uğrunda qəhrəmancasına həlak olmuş kompleksin məzunu Elçin Cavadovun anım günü hər il olduğu kimi bu il də qeyd edilmişdir. Ötən tədris ili dövründə kompleks xeyriyyə tədbirlərinə də böyük yer ayırmışdır. Bunlardan Azərbaycan Respublikası İnsan Hüquqları Müvəkkili aparatının Ahıllar Resurs mərkəzi, Suraxanı rayonu, Yeni Günəşli "D" massivində yerləşən 2 saylı uşaq evi, eşitmə qüsurlu uşaqların internat-bağçası, 11 saylı xüsusi orta məktəb və digərlərini göstərmək olar.

Bakı Slavyan Universiteti nəzdində məktəb-lisey kompleksinin kollektivi 2018-2019-cu tədris ilində də yüksək təhsil uğurları qazanmaq əzmi ilə yeni dərs ilinə başlamışdır. Milli təhsilimizin inkişafına, biz müəllimlərə dövlətimiz tərəfindən göstərilən diqqət və qayğıya cavab olaraq bundan sonra da Vətənimizin gələcəyi olan gənc nəslin hərtərəfli biliyə, milli-mənəvi dəyərlərə malik olmaları üçün əzmlə çalışacağıq.

**İlahə CARÇIYEVA,**
**BSU nəzdində Məktəb-lisey kompleksinin direktoru.**

**Respublika.- 2018.-29 sentyabr.-S.7.**